# Savaşda nüfuzdan düşən Tehran rejimi – bərpası bu siyasətlə mümkün olmayan iqtisadiyyat

**Tarix: 02 İyul 2025**

**Azərbaycan Ruznaməsi – Yaxın Şərq Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Sədrəddin İsmayılov ilə müsahibəni təqdim edir.**

**- Sədrəddin Müəllim ! İsrail-İran savaşı niyə başladı?**

- Adlanmasından asılı olmayaraq, iyunun 13-də İsrailin İrana raket hücumu müharibə idi. Düzdür, tərəflər yerüstü əməliyyat keçirməyib. Ancaq mahiyyəti və hədəfi baxımdan mühribə idi.

Bu, 2023- cü il oktyabrın 7-də Qəzza zolağında İranın proksi qüvvəsi olan HƏMAS-ın İsrailə hücumuna, Livandakı "Hizbullah"ın ona dəstəyinə cavabın davamı idi.

Ona görə də İran-İsrail müharibəsi uzun müddətli proksilərin münaqişəsinin nəticəsi sayılır. Həmin tarixdən davam edən daha geniş Yaxın Şərq müharibəsi fonunda İran İsraili nüvə proqramı və ballistik raketlərlə təhdid edib. Hətta, uranı 80 faizədək zənginləşdirdiyini, nüvə silahı əldə etməsinin bir addımlığında olduğunu iddia edib.

İsrail Tehran hakimiyyətinin ona hücuma keçəcəyini, hətta, Yəməndə husi qiyamçılarına nüvə silahı verəcəyini əsas göstərərək, İrana raketlər və dronlarla 2025-ci il iyunun 13-də hücum etdi.

Baş verənlər onu da göstərir ki, hədəf Tehran hakimiyyətini devirmək olmayıb. ABŞ lideri Donald Tramp və İsrail Baş naziri Binyamin Netanyahu çıxışlarında buna işarə etsə də, ancaq

davranışları bunu təsdiqləmədi. Görünən odur ki, bu əməliyyatın hədəfi İranın nüvə obyektlərinin məhv edilməsi, hərbi sənaye kompleksi müəssisələrinin sıradan çıxarılması, inqilab keşikçiləri qvardiyası (Sepah) və Silahlı Qüvvələr başçılarının, atom-nüvə fiziklərinin öldürülməsi, Sepahın qərargahlarının, kazarmalarının, mövqelərinin dağıdılması, rəsmi dövlət binalarının dağıdılması və s. olub.

İyunun 22-də ABŞ-nin İranın üç nüvə obyekti – Fordo, İsfahan və Nətənzi bombalaması ilə, demək olar ki, əməliyyat başa çatmış sayılırdı.

Bu istiqamətdə İranın ABŞ-yə məxsus hərbi bazalara hücumu gözlənilirdi. O da baş verdi. İran Ştatların Qətərdəki aviabazalarına hücum etdi. Cavab olaraq İran ballistik raketlər və pilotsuz uçuş aparatlarından istifadə edərək İsrailin şəhərlərini və hərbi obyektlərini atəşə tutmağa başladı. Yaşayış fonduna, təhsil müəssisələrinə, "Soroka" xəstəxanasına və Weizmann İnstitutuna əhəmiyyətli ziyan vuruldu, həmçinin Hayfada neft emalı zavodu da zədələndi.

Nəhayət, 46 ildir gözlənilən İran-İsrail birbaşa müharibəsi baş verdi. Tərəflərin biri-birinin tam məğlub etdiyinin isə söyləmək hələ ki tezdir. Bu qənaətə ABŞ-İran birbaşa ikitərəfli görüşləri başlayandan, onlar arasında mühüm qərarlar, sənədlər qəbul edildikdən sonra gəlmək olar.

Hələlik, İsrail və İran atəşkəs rejimini qəbul etsə də müharibə təhlükəsi qalmaqdadır. Bir də İslam Respublikasında “İsrailə ölüm!”, “ABŞ-yə ölüm!” şüarları hələ də səslənir. Bu da təhlükənin hələ də aradan qalxmadığını ehtimal etməyə əsas verir.

**- İsrail ilə İran arasında baş vermiş müharibə nəticəsində İranın verdiyi itkilər nə qədər olmuşdur?**

**-** İran 12 günlük müharibədə İsrail tərəfindən öldürülən sepah və İran Müdafiə Nazirliyinin üzvlərinin siyahısını dərc edib. Onların arasında İran Silahlı Qüvvələrinin Baş Qərargahının, sepahın, qvardiyanın Aerokosmik Qüvvələrinin, pilotsuz uçuş qüvvələrinin komandanları var. Ümumilikdə üç general-leytenant, səkkiz general-mayor və 17 briqada generalı.

**- Onlarin bəzilərinin adlarını oxucularin diqqətinə çatdırmağı xahiş edirik.**

**-** Qüvvələrin Baş Qərargahının komandanı, sepah general-leytenantı Məhəmməd Hüseyn Baqeri, sepah general-leytenantı, Xatəm əl-Ənbiya mərkəzi qərargahının komandanı Qulam Əli Rəşid, sepah komandanı, general-leytenantı Hüseyn Salami, Aerokosmik Qüvvələrinin komandanı, general-mayor Əmir Əli Hacızadə, Silahlı Qüvvələrin Baş Qərargahının əməliyyatlar üzrə müavini, general-mayoru Mehdi Rəbbani, Silahlı Qüvvələrin Baş Qərargahının kəşfiyyat rəisinin müavini general-mayor Qulamrza Mehrabi, Müdafiə Nazirliyinin Mərkəzi Komandanlığı, general-mayor Əmir Mozaffarinya, sepahın kəşfiyyat departamentinin komandanı, general-mayor Məhəmməd Kazemi, kəşfiyyat rəisinin müavini, general-mayoru Möhsün Baqeri , Xatəm əl-Ənbiya Mərkəzi Qərargahının baş müfəttişinin müavini, general-mayor Məhəmməd Cəfər Əsədi, sepah kəşfiyyat idarəsində komandanın nümayəndəsi, general-mayor Məhəmməd Rza Nasir Baqban, Aerokosmik Qüvvələrinin Müdafiə Komandanlığı, briqada generalı Davud Şeyxian, Sepahın Ali Baş Komandanlığı İdarəsinin rəisi, briqada generalı Məsud Şanei, Sepahın aerokosmik qüvvələrinin PUA bölməsinin komandanı, briqada generalı Məhəmməd Bakir

Tahirpur, Aerokosmik Qüvvələrinin kəşfiyyat direktorunun müavini, briqada generalı Xosrov Həsəni, Tehrandakı sepah aerokosmik qüvvələrinin komandanı, briqada generalı Mansur Səfərpur, Sepah Aerokosmik Qüvvələri komandanının müavini, briqada generalı Əmir Purcudaki, “Qüds" qüvvələrinin Fələstin diviziyasının komandanı, briqada generalı Məsud Tayeb, briqada generalı Taqi Yusefvand - "Bəsic" könüllü qüvvələrinin kəşfiyyat bölməsinin komandanı, briqada generalı Cavad Carsara – İİKK Hava-kosmik qüvvələri, briqada generalı Həsən Mohakek, sepah kəşfiyyat rəisinin müavini və başqalar.

Həmçinin sepahın “Qüds” bölməsi Fələstin istiqamətinin rəhbəri, HƏMAS və digər Fələstin fraksiyaları ilə əlaqələri kurasiya edən Məhəmməd Səid İzadi də öldürülüb. Ölənlər arasında İranın Atom Enerjisi Təşkilatının keçmiş rəhbəri Fereydun Abbasi Davani də daxil olmaqla ən azı İranın altı nüvə alimi var.

Öldürlənlər arasında sepahın himayəsində olan bütün qruplaşmalara silah qaçaqmalçılığı məsələləri ilə məşğul olan "190-cı Bölmə"nin komandanı Behnam Şəhriyari də var.

**- Iranin hərbi rəhbərliyi çox ciddi zərbə alıb, ancaq bu, həlledici zərbə sayılmır, Niyə?**

- Çünki bir çox vəzifələr sahibinin gözlənilməz ölümündən sonra onlar əvəz edilib. Bundan başqa ölən generalların siyahısında briqada generalı, "Əl-Qüds" xüsusi bölməsinin birbaşa komandanı İsmail Qaaninin adı yoxdur. Onun ölümü barədə İsrail mediası məlumat vermişdi, ancaq bu təsdiqlənmədi. İyunun 25-də Tehrandakı bayram tədbirində onun da qatıldığının görüntüləri yayılmışdı.

İran hakimiyyəti mövcud hərbi texnika və sistemlə zahirən müqavimət yaxşı təşkil etmiş sayılsa da, İsrailin hərbi potensialına iddia etdiyi səviyyədə zərbə endirə bilmədiyi, yaxud İsrailin etdiklərinə adekvat cavab verə bilmədiyi, çoxlu sayda yüksək rütbəli və vəzifəli hərbçiləri itirdiyi, nüvə obyektlərinin müdafiəsinin təşkil edə bilmədiyi, mülki əhalinin təhlükəsizliyini təmin etmədiyi, yaxud çox zəif təşkil etdiyi üçün qalib sayılmır.

- **İsrailin itkiləri haqqında duzgün məlumat varmı?**

- İran mənbələri İsrail itkiləri haqqında da məlumat yayıb. Bildirilib ki, bu zərbə endirilən strateji obyektlər bulardır: Əl-Cəlil bazası, Hayfa limanı, Hayfada elektrik stansiyası, Hayfada neft emalı zavodu, Tel-Nof aviabazası, “Mossad”ın qərargahı, Kirya bazasının komanda mərkəzi, Kiryat-Qat sənaye şəhəri, yüksək texnologiyalar və mikroçip istehsalı mərkəzi, İsrail Müdafiə Nazirliyinin idarəetmə və nəzarət mərkəzi, Rafael şirkəti, müdafiə sistemləri təchizatçısı, Hadar elektrik stansiyası, Ben-Qurion hava limanı, Veyzman Elmi İnstitutu, Negevdə nüvə tədqiqat mərkəzi, Nevatim aviabazası, Ovda aviabazası, 8200 bölməsi, kiber əks-kəşfiyyat və elektron əməliyyatlar qərargahı.

**- Yaxın şərqdə müharibənin nəticələri haqqında nə kimi məlumat verə bilərsiniz?"**

- İran və İsrail arasında müharibə hələlik başa çatıb, tərəflər zərəri hesablayırlar. İnsan itkiləri müqayisə olunmazdır, İrana çox ciddi zərər vurulub, ölkədəki maddi itkilər açıqlanmayıb. İsrail isə əksinə, xərcləri diqqətlə hesablayıb və "belə bir zərərin" onlarda hələ olmadığını bildirib.

12 günlük müharibə nəticəsində İranda 1190 nəfər ölüb, 4475 yaralanıb.

İyunun 27 -də HRANA-nın verdiyi məlumata əsasən, ölənlərdən 435 mülki şəxs və 436 hərbi qulluqçu var, daha 319 ölənin statusu araşdırılır. Qeyd etmək lazımdır ki, İranda bu müharibədə Sepahın azı 56 hərbiçisi həlak olub. Onların əksəriyyəti yüksək rütbəli zabitlərdir.

İrandakı maddi zərər hələ açıqlanmayıb, lakin onun çox böyük olduğu aydındır - həm yaşayış evləri, həm infrastruktur, həm də nüvə proqramı üçün işləyən müəssisələr dağıdılıb.

İsrailin məlumatına görə, İran hücumları nəticəsində ölkədə 28 nəfər həlak olub, 1472 nəfər yaralanıb. İsraildə müharibədən dəyən maddi zərər də hesablanıb. Bildirilib ki, infrastrukturun bərpası və biznesə kompensasiyalara dəyən ziyan üç milyard dollar təşkil edəcək.

Qeyd olunub ki, bu məbləğə bombardmanlar nəticəsində dağıdılmış binaların bərpa xərcləri, həmçinin yerli biznesə kompensasiya ödənişləri daxildir. İsrail Vergi İdarəsinə 36 500 zərər iddiası, o cümlədən 29 min dağıdılmış binalar və 3 mindən çox nəqliyyat vasitələrinə dəymiş zərər daxil olub.

**- İranda casuslarin sayı çox oldu. Buna fikriniz nədir?**

- İranda xarici ölkələrə casusluq etməklə bağlı təqsirli bilinənlər həmişə olub. Tehran hakimiyyəti adətən müxalif düşüncəliləri, onlara qarşı olan fikirləri “ingilis işi” adlandırıb. Bu dəfə isə müharibə zamanı həbs etdiklərinin hamısı demək olar ki, “İsrailə agentlik” etməkdə mühakimə olundu. Bir neçə nəfər isə edam edildi.

Bu hakimiyyətin zəifliyi və ya təhlükəsizlik sisteminin işlərinin yarıtmaq qurmasının nəticəsi də sayılır.

HƏMAS lideri İsmayıl Həniyənin Tehranda az qala hakimiyyətin ən təhlükəsiz bildiyi binada öldürülməsi ilə bu təsdiqlənmişdi. Livan “hizbullah”ının lideri Həsən Nəsrullahın bunkerdə öldürülməsi də bu hadisənin davamı sayıla bilər. Həmin hadisədən sonra Sepahın “Qüds” qoşunlarının komandanı İsmayıl Kaaninin yoxa çıxması ilə müxtəlif şaiyələr, xəbərlər yayılmışdı. Belə iddia olunurdu ki, Nəsrullahın yerləşdiyi bunkerin koordinatını MOSSAD-a o verib.

Ona görə də hakimiyyətin yuxarı eşalonunda İsraillə əməkdaşlıqda şübhəli bilinənlər barədə xəbər yayılıb.

**- Yayilan xəbərlərə əsasan, ayətullah Seyid Əli Xameneinin yaxınlığında MOSSAD casusu axtarılır. Bunlar kimlərdir?**

- İnqilab Keşikçiləri Qvardiyasının komandir müavini Əli Fədəvinin MOSSAD ilə əməkdaşlıqda şübhəli bilinərək dindirilməsi ilə bağlı pıçıltılar yayılıb. Xameneinin müşaviri, keçmiş müdafiə naziri Əli Şamxani, “Qüds” qoşunları komandanı İsmayıl Kaani, Hüseyn Taib, Abbas Ərakçi, hətta öldürülən Firudun Abbasi də MOSSAD ilə əməkdaşlıqda şübhəli bilinir.

Parlamentin Milli Təhlükəsizlik Komissiyasının keçmiş rəhbəri Heşmətulla Fəlahətpişe İslam Respublikası ilə İsrail arasında 12 günlük müharibədən danışarkən deyib : “İsrail İranda pilotsuz təyyarələr istehsal edərkən biz "it gəzintisi" ilə məşğul olanlarla mübarizə aparırdıq”.

İranın keçmiş kəşfiyyat naziri Əli Yunisi MOSSAD-ın İrandakı fəaliyyəti ilə bağlı bir neçə il öncə demişdi: "Son 10 ildə ölkənin

müxtəlif bölgələrində MOSSAD-ın təsiri o dərəcədədir ki, İslam Respublikasının bütün rəsmilərinin həyatları üçün qorxmağa əsas var". Onun sözlərinə görə, paralel təhlükəsizlik və kəşfiyyat təşkilatları onları müəyyən etmək əvəzinə özünküləri ilə vuruşurlar. Keçmiş nazir illər öncə MOSSAD-ın İrana nüfuz etdiyini bildirib.

12 gün ərzində İsraillə əməkdaşlıqda ittiham olunan minə yaxın insan həbs edilib.

Onların arasında İran vətəndaşı azı 35 yəhudi təhlükəsizlik mərkəzlərinə çağırılaraq, dindirilib. Onların əksəriyyətinə İsraildəki qohumları ilə əlaqədar sual verilib.

Məlumatlara görə, təhlükəsizlik xidməti agentləri Tehran, Şiraz və İsfahan kimi şəhərlərdə yəhudilərin evlərində axtarışlar aparıb, onların mobil telefonlarını və elektron avadanlıqlarını yoxlayaraq, müsadirə ediblər.

"Casusluq" ittihamı ilə saxlanılanlara dair çoxsaylı informasiyalar yayılıb.

**- Əsas sual budur - onların sayı niyə çoxdur?**

- Bunun bir sıra səbəbləri var:

- Cəmiyyətin hakimiyyətdən narazılığı. Vətəndaşlar bu rejimə qarşı mübarizdə, onu zəiflətməkdə ona dair məlumatı yaymağa üstünlük verir;

-cəmiyyət hakimiyyətdən bezməsi;

-qisasçılıq üçün bu addımın atılması;

-hakimiyyətə etiraz edənlərin "casus" adı altında susudurulması;

-yaranan fövqəladə vəziyyətdən sui-istifadə edilməsi;

-ağır sosial vəziyyətə görə bu addımı atanlar;

-İranın təhlükəsizlik sisteminin yarıtmaz fəaliyyəti;

-İran təhlükəsizlik sisteminin müasir informasiya texnologiyaları ilə təchizatının aşağı səviyyədə olması və s.

**- İran-İsrail münaqişəsinə dair beynəlxalq aləmin reaksiyası necə idi?**

- Müharibə başlayanda və gedişi zamanı G7-lik İsraili müdafiə etdi.

Rusiya və Çin isə çıxış yolunu bəyanat verərək, özünü bir az kənara çəkməyə çalışdı. Moskva tərəflər arasında vasitəçilik etməklə bağlı təklif irəli sürdü.

Bloomberg agentliyinin məlumatına görə, İsrail Çindən İranın hərbi və nüvə ambisiyalarını məhdudlaşdırmaq üçün iqtisadi, siyasi təsirindən istifadə etməyə çağırıb.

İsrailin Şanxaydakı baş konsulu Ravit Baer bildirib ki, İrana təsir edə biləcək yeganə ölkə Çindir: “Çin onun neftini almasaydı, İran çökərdi”.Baş konsulun sözlərnə əsasən, rəsmi Pekin İrana təzyiq göstərə bilər, çünki Tehran üzərində siyasi hökmü var: “Onlar regiondakı bədniyyətli fəaliyyətini dəyişdirməyə kömək edə bilərlər”.

Bununla yanaşı o vurğulayıb ki, Çinin İsrail və İran arasında vasitəçi olmaq istəyinin olduğunu düşünmür.

Qeyd edək ki, Çin İslam Respublikasının ixrac etdiyi neftin təxminən 90 faizini alır.

İyunun 30-da isə G7 ölkələrinin xarici işlər nazirləri İranın nüvə proqramı üzrə danışıqların bərpasına çağıran bəyanatla çıxış ediblər.

G7 üzvləri həmçinin İran və İsrail arasında atəşkəsi alqışlayıb və gərginliyin azaldılması üçün diplomatik səylərin davam etdirilməsinə çağırıblar.

Bundan əlavə, G7 ölkələrinin xarici işlər nazirləri İsrailin təhlükəsizliyini qətiyyətlə dəstəkləyərək, İranın Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin baş direktoru Rafael Qrossinin həbs və edam edilməsi çağırışlarını pisləyib, məsələ ilə bağlı dərin narahatlıqlarını ifadə ediblər.

- **Müharibə davam edəcək**

- Tehranın iddia etdiyi 408,6 kq zənginləşdirilmiş uranı İrana hücum üçün əsas ola bilər. Bundan başqa müharibə zamanı 10-dan çox atom-nüvə fizikinin öldürülməsi də hədəfdə yalnız nüvə obyektlərinin olmadığını göstərir. Başqa sözlə fiziklər nüvə texnolojisinin komponentdir.

Tehran hakimiyyəti nüvə obyetkləri ilə bağlı təzadlı fikirlər bildirir. Bəzi rəsmilər iddia edir ki, ABŞ və İsrail İranın nüvə potensialını sarsıtmayıb. Belə çıxır ki, İranın nüvə silahı əldə etməsi təhlükəsi sıradan çıxmayıb.

Ancaq İran hökumətinin sözçüsü Fatimə Mühacirani iyulun 1-də keçirdiyi mətbuat konfransında bildirib ki, İsrail və ABŞ-ın son hərbi əməliyyatları nəticəsində İranın nüvə obyektləri ciddi zərər görüb.

Onun sözlərinə görə, 12 gün ərzində İranın hərbi, nüvə və yaşayış obyektləri ilə yanaşı ABŞ Nətənz, Fordo və İsfahan şəhərlərindəki üç nüvə obyektinə hərbi zərbələr endirib.

O, İranla ABŞ arasında yeni danışıqlar raundunun perspektivləri ilə bağlı suala cavabında isə deyib ki, İslam Respublikasının Xarici İşlər Nazirliyi artıq bu barədə hələ heç bir qərarın qəbul edilmədiyini bildirərək və yaxın gələcəkdə belə danışıqların keçirilməsi ehtimalını istisna edib.

Bu günlərdə Donald Tramp "Fox News" telekanalına müsahibəsində deyib ki, İranın nüvə silahı əldə etməsinə bir neçə həftə qalmışdı: "Tehran xoş niyyət nümayiş etdirsə, Vaşinqton sanksiyaları ləğv edə bilər".

O əlavə edib ki, İran çox yorulub və hazırda nüvə proqramını bərpa etmək barədə düşünmür. Bu açıqlama müharibənin başlamayacağına dair müəyyən arxayınlıq yaratsa da, Tehranla Vaşinqton arasında ikitərəfli danışıqlar başlamayana, tərəflərin ortaq məxrəcə gəlməyənədək müharibə təhlükəsi azalmayıb.

**- İran-İsrail qarşıdurmasında Xameneinin öldürülməməsinin səbəbi nə idi?**

- Tehran rejiminin əsaslarından biri ayətullah Seyid Əli Xamənei, o biri isə Sepahdır. Müharibə zamanı 30-dan çox qvardiya komandirinin öldürülməsi, bu silahlı qüvvəyə məxsus qərargahların, obyektlərin dağıdılması da bundan xəbər verir.

Sepahı terrorçu təşkilatlar siyahısına daxil etdiklərindən İsrail və ABŞ-nin bu əməliyyatı məntiqi sayılır. Qvardiya ölkədə "A"-dan "Z"yədək hər nəyə nəzarət edir. Başqa sözlə, rejimin əsas dayağı Sepah və onun yarımhərbi dəstəsi, "bəsici"lərdir.

Ona görə də qvardiya əsas hədəf olub. Hətta, müharibə zamanı Xəmeneinin səlahiyyətlərinin bir hissəsini bu quruluşa verdiyinə dair xəbərlər də yayılmışdı.

Hakimiyyəti laxlatmaq, onu zəiflətmək üçün Sepahın sıradan çıxarılması, yaxud sındırılması vacib sayılırdı. Düzdür, Qəzza zolağın, Livan, Suriya və İraq "Qüds" qoşunlarına vurulan zərbələrlə təşkilat silkələnmişdi. Ancaq İsraillə müharibədə zərbələrin daha təsiredici olduğu bildirilb.

Xameneinin nüfuzu qvardiyanınkından çoxdur. Çünki onun əsas dayağı bu silahlı qüvvədir. Ancaq ali lideri hər hansı şəkildə zərərsizləşdirlməsi əsas hədəflərdən deyəsən, olmadı.

Belə çıxır, ABŞ və İsrailə, habelə onun müttəfiqlərinə İranda xaos yaratmaq planda olmayıb. Xamənei öldürülsəydi ölkədə vəziyyət idarə edilməz hala düşərdi. Bu isə region dövlətlərinin, Qərbin maraqlarına cavab vermirdi. Xaos zamanı bölgədəki beynəlxalq güclərin müəssisə və şirkətləri də hədəf ola bilərdi.

Bundan başqa belə bir şəraitdə İrandakı vəziyyətlə bağlı danışıb, müzakirə edəcək, müəyyən qərarlar qəbul edəcək struktur olmayacaq. Yardılacaq yeni strukturun isə tələblərə cavab verib, verməyəcəyi isə naməlum idi. Başqa sözlə, belə qənaətə gəlmək olar ki, hakimiyyətə etibarlı alternativin olmaması Xameneinin neytrallaşdırılmasının planda olmayıb.

ABŞ-yə Tehran hakimiyyəti ilə ikitərəfli görüşlər keçirib, onu məğlub etməkdir. Bu səbəbdən də ali rəhbəri aradan götürmək məqsədəuyğun sayılmayıb.

**- İran İslam Respublikasının gələcəyi ilə bağlı proqnozlar nədir?**

- Müharibə Tehran hakimiyyətinə mövcudluğunu daha bir müddət uzatmağa imkan verib. Ancaq dağılan iqtisadiyyat, məyus

cəmiyyət İslam Respublikasının daxildən çökəcəyini, yaxud islaha olunacağını ehtimal etməyə əsas verir.

İş adamlarının, başqa sosial təbəqələrin hakimiyyətə etibarı azalıb.

Cəmiyyətə məlum oldu ki, bu rejim 46 il, yaxud İraqla müharibədən sonrakı 37 il ərzində əhalinin müdafiəsi və təhlükəsizliyi ilə bağlı önəmli işləri görməyib. 46 il "İsrailə ölüm!", "Amerikaya ölüm!" şüarları ilə hakimiyyətini davam etdirən rejimi ölüm arzuladıqları az qala bitirmişdi.

Məlumatlara əsasən, hazırda İrandakı, xüsusilə Tehrandakı valyuta mübadiləsi məntəqələri vasitəsilə ölkə daxilində vətəndaşlardan əhəmiyyətli miqdarda kapital xaricə köçürülür. Hökumət kapital axınını məhdudlaşdırmağa çalışdığı üçün İranda bir neçə valyuta dəyişmə məntəqəsinin fəaliyyətini texniki nasazlıqlar bəhanəsilə dayandırıb.

"Sepah" və "Pasargad" banklarına edilən kiberhücumdan sonra əhalinin bank sisteminə inamsızlığı səbəbindən xeyli miqdarda kapital valyutadəyişmə məntəqələri vasitəsilə xaricə köçürülüb.

İnsanların Vətəni İrana olan sevgilərini Tehran rejimi mənimsəməyə çalışıb. Ölkə daxilində və xaricdəki İran vətəndaşları hakimiyyətə deyil, vətənə sevgidən bu müharibəyə qarşı çıxıblar.

Azərbaycan Milli Hərəkatına, elə farslara da bu savaşın heç bir aidiyyəti yox idi. Çünki mövcud rejimin başçısını xalq seçməyib. Onu dini ekspertlər şurası müəyyənləşdirib. Bu baxımdan ali rəhbəri verdiyi əmr və göstərişlərə əhali saymazlıq göstərə bilərdi.

Azərbaycan türklərinin mili hüququnu təmin etməkdən imtina edən, onu görməzlikdən gələn Tehran hakimiyyəti fars dili və ədəbiyyatının yayılması üçün milyonlarla dollar xərcləyir. Ermənistanda fars dilinin, İran da erməni dilinin inkişafına şərait yaradır, maliyyə vəsaiti xərcləyir.

Müharibənin Azərbaycan heç bir aidiyyət yoxdur. Çünki bu savaş onun maraqları uğrunda aparılmır. Bu müharibə mövcud rejimin "İsrailə ölüm!", "Amerikaya ölüm!" siyasi-ideoloji hikkəsini reallaşdırmağa bir cəhd idi. Bu rejimin isə Azərbaycan türklərinə nə aidiyyəti var? Onun şüarı "Azadlıq, Ədalət, Milli hökumət!", "İrana demokratiya, Azərbaycana muxtariyyət!"dir. Hakimiyyət İran sevdalılarının əməyini öz hakimiyyətini qorumaq üçün xərcləyir. Təbrizdə sepahın qərargahı bombalananda bunun emosial tərəfinin təbliğ etməyə səy etdilər. Ancaq heç kim soruşmadı İsrail "Təbrizi niyə vurur?". Çünki İranın 32 əyalətindən 21-i raket hücumuna məruz qalmışdı. Təbrizdə və Güney Azərbaycanın başqa bölgələri sepah obyektləri, hərbi bazalar çox olduğu üçün hədəf tuş gəlmişdi.

Güney Azərbaycana iqtisadi sərmayə qoymaq istəməyə Tehran hərbi bazaları orada salmışdı. Müharibə də onların hədəfə alınmasını təbi saymaq olar.

İran-İraq savaşında yüz minlərlə Azərbaycan türklər həlak olmuşdu. Müharibə başa çatandan sonra onun milli mədəni hansı hüququ təmin edildi? Heç biri. Elə ona görə də bu müharibə güney azərbaycanlıların deyil. Bu savaş rejimin hikkəsi, boş ideoloji hədəfinə aiddir. İsraillə müharibə Xomeyninin lideri olduğu siyasi-ideologiyaya aiddir.

Görünür, bu savaş hakimiyyət qarşı olanlar, yaxud islahat tərəfdarlarına yeni sistem uğrunda mübarizə aparmaq üçün çox böyük dərs olacaq. **Ona görə. milli hərəkatlar qazavatınız mübarək!!!**

TƏŞƏKKÜR EDİRİK

**Azərbaycan Ruznaməsi**

**Müsahibəni aparan: Ayda Amir Hashimi**